# NEHEMYA

## KİTABI

## GİRİŞ

*«Nehemya»* Kitabı *«Salnamələr»* və *«Ezra»* Kitabları ilə sıx əlaqədədir. Kitabda yəhudilərin üçüncü hissəsinin sürgündən Yerusəlim şəhərinə qayıtmasından bəhs olunur. Kitabın baş qəhrəmanı olan Nehemya Fars padşahının sarayında yüksək vəzifə sahibi, həm də Allaha səmimi qəlblə bağlı bir şəxs idi. Nehemyanın qiymətli keyfiyyətlərindən biri də vaxtaşırı Allaha dua etməsi idi. O, çox fəal adam olduğuna görə sürgündən qayıdan həmvətənlərini ruhlandırıb onların ruhani həyatlarına istiqamət verirdi. Allah da vədlərinə sadiq qalıb Öz xalqına kömək edirdi.

***Kitabın məzmunu:***

1:1-2:20 Yerusəlimə səyahət
3:1-6:19 Divarın tikilməsi
7:1-73 Siyahıyaalma
8:1-11:36 Xalqın ruhani oyanması
12:1-26 Kahinlərin və Levililərin siyahıya alınması
12:27-43 Divarın təqdis edilməsi
12:44-47 Məbəddə ibadətin bərpa olunması
13:1-31 Nehemyanın qayda-qanunu bərpa etməsi

***Nehemyanın Yerusəlim üçün qayğısı***

1 1Xakalya oğlu Nehemyanın söz-
ləri:
Mən iyirminci ildə[a] Kislev ayında
Şuşan qalasında olarkən 2qardaşla-
rımdan biri Xanani və Yəhudadan
bəzi adamlar gəldi. Mən onlardan
əsirlikdən qurtulub qayıdan Yəhudi-
lərlə Yerusəlim şəhəri barəsində soruş-
dum. 3Mənə belə dedilər: «Əsirlikdən
qurtulub qayıdanlar orada – vilayətdə
böyük məşəqqət və xəcalət içində
yaşayır. Yerusəlimin divarı dağıdılıb,
darvazaları isə yandırılmışdır». 4Bu
sözləri eşitdikdə oturub ağladım.
Günlərlə yas tutdum və göylər Alla-
hının önündə oruc tutaraq dua edib
belə dedim:

***Nehemyanın duası***

5«Ey göylərin Allahı Rəbb! Səni
sevənlərlə, əmrlərinə əməl edənlərlə Öz
əhdinə sadiq qalıb lütf göstərirsən. Ey
böyük və zəhmli Allah! 6Yalvarıram,
mənə diqqətlə qulaq as. Qulların olan
İsrail övladları üçün gözlərini aç, Sənin
önündə gecə-gündüz bu qulunun etdiyi
duanı dinlə. Mən, biz İsrail övladla-
rının Sənə qarşı etdiyimiz günahları

a **1:1** Fars padşahı Artaxşastanın hakimiyyətinin iyirminci ili nəzərdə tutulur.

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 568



etiraf edirəm. Mən də, atalarım da
günah etmişik. 7Hüzurunda təqsirimiz
çoxdur. Qulun Musaya buyurduğun
əmrlərə, qaydalara və hökmlərə əməl
etmədik. 8Yalvarıram, qulun Musaya
“əgər xəyanət etsəniz, sizi xalqlar
arasına səpələyəcəyəm. 9Amma Mənə
tərəf dönsəniz və əmrlərimi tutub
onlara əməl etsəniz, göylərin o başına
qovulsanız belə, oradan sizi toplaya-
cağam. Adımı yaşatmaq üçün seçdi-
yim yerə gətirəcəyəm” deyə buyurdu-
ğun sözlərini xatırla. 10Onlar Sənin
qulların və xalqındır. Böyük qüvvətin-
lə və qüdrətli əlinlə onları Sən qur-
tardın. 11Ya Xudavənd, yalvarıram,
bu qulunun duasına və Sənin adına
ehtiram etməkdən zövq alan qulları-
nın duasına diqqətlə qulaq as! Yalva-
rıram, bu gün qulunun işini uğurlu et,
qoy padşahın gözündə lütf tapsın».

Mən o vaxt padşahın saqisi idim.

### *Artaxşastanın Nehemyanı Yerusəlimə göndərməsi*

2 1Padşah Artaxşastanın[a] hakimiy-
yətinin iyirminci ili, Nisan ayı idi.
Padşahın qarşısına şərab gətirildi.
Mən şərab camını qaldırıb ona ver-
dim. O günə qədər mən heç vaxt onun
hüzurunda kədərli görünməmişdim.
2Padşah mənə dedi: «Üzün niyə belə
qəmlidir? Xəstə olmasan da, hər halda
ürəyin dərdlidir». Onda mən çox qorx-
dum. 3Sonra padşaha dedim: «Padşah
həmişə sağ olsun! Atalarımın dəfn
edildiyi yer, şəhərimiz xaraba qalıb,
darvazaları yandırılıb. Bəs mən necə
kədərlənməyim?» 4Padşah isə mənə
dedi: «Sən məndən nə diləyirsən?»
Mən göylərin Allahına dua edərək
padşaha dedim: 5«Əgər padşaha bu
xoş gəlirsə və qulun sənin gözündə lütf
tapıbsa, məni Yəhudaya, atalarımın
dəfn edildiyi şəhərə göndər ki, oranı
bərpa edə bilim». 6Mələkə də padşahın
yanında oturmuşdu. Padşah mənə
dedi: «Bu səfərin nə qədər çəkər? Nə
vaxt qayıda bilərsən?» Məni göndər-
mək padşaha məqbul oldu və mən
qayıdacağım vaxtı müəyyən etdim.
7Sonra mən padşaha dedim: «Əgər
padşaha xoş gəlirsə, Fərat çayının qər-
bindəki torpaqların valiləri üçün mənə
namələr verilsin ki, Yəhudaya çatana
qədər məni vilayətlərindən keçirtsin-
lər. 8Həm də padşahın meşə nəzarət-
çisi Asəfə namə göndərilsin ki, mə-
bədin yanındakı qala darvazalarına,
şəhərin divarına və iqamətgahıma
tirlər düzəltmək üçün mənə ağac ver-
sin». Allahın mərhəmətli əli üzərimdə
olduğuna görə padşahdan nə istədim-
sə, mənə verdi.

9Fərat çayının qərbindəki valilərin
yanına getdim və padşahın namələrini
verdim. Padşah mənimlə birgə ordu
zabitləri ilə atlıları da göndərmişdi.
10Xoronlu Sanballat və Ammonlu
məmur Toviya İsrail övladlarının
xeyrinə çalışan bir nəfərin gəldiyini
eşitdikdə çox hirsləndilər.

### *Nehemyanın dağılmış divarlara nəzər salması*

11Mən Yerusəlimə gəlib orada üç
gün qaldım. 12Gecə ikən qalxıb özümlə
bir neçə adam götürdüm. Yerusəlim
üçün nə etmək barəsində Allahımın
ürəyimə göndərdiyi fikirləri heç kəsə
açmadım. Mindiyimdən başqa heç bir
heyvan götürmədim. 13Gecə Dərə dar-

a **2:1** *Artaxşasta* – Azərbaycanda indiki tarixi ədəbiyyatlarda Artakserks.

**1:8** *Lev. 26:33* **1:9** *Qanun. 30:4* **2:3** *2Pad. 25:8-10; 2Saln. 36:19; Yer. 52:12-14*

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 569



vazasından çıxıb Əjdaha quyusuna və
Peyin darvazasına doğru getdim,
Yerusəlimin dağıdılan divarına və
yandırılan darvazalarına nəzər saldım.
14Sonra Çeşmə darvazasına və Padşah
hovuzuna tərəf getdim, lakin mindi-
yim heyvan o yerlərdən keçə bilmirdi.
15Həmin gecə vadi boyunca çıxaraq
divarı gözdən keçirtdim. Sonra dönüb
Dərə darvazasından girərək geri qayıt-
dım. 16Hökumət məmurları hara get-
diyimi, nə etdiyimi bilmirdilər. Çünki
Yəhudilərə, kahinlərə, əyanlara, mə-
murlara və digər vəzifəlilərə heç bir şey
danışmamışdım.

17Mən onlara dedim: «Düşdüyümüz
bu pis vəziyyəti görürsünüz; Yerusəlim
xarabalığa çevrilmiş, darvazalarına isə
od vurulmuşdur. Gəlin Yerusəlimin
divarını bərpa edək ki, bir daha rüs-
vayçılıq içərisində qalmayaq». 18Mən
Allahın mərhəmətli əlinin üzərimdə
olduğunu bildirərək padşahın mənə
dediyi sözləri onlara çatdırdım. Onlar
belə dedilər: «Gəlin qalxaq, buraları
bərpa edək». Bu xeyirli iş üçün hamı
əlbir oldu.

19Lakin Xoronlu Sanballat, Am-
monlu məmur Toviya və Ərəb Geşem
bundan xəbər tutanda bizə xor ba-
xaraq ələ salıb dedilər: «Bu nə işdir
tutursunuz? Yoxsa siz padşaha qarşı
üsyan qaldırırsınız?» 20Mən onlara
cavab verərək dedim: «Göylərin Allahı
işimizi uğurlu edəcək. Onun qulları
olan bizlər qalxıb buranı bərpa edəcə-
yik. Sizin isə Yerusəlimdə nə payınız,
nə haqqınız, nə də adınız olacaq».

### *Divarı tikənlər*

3 1Baş kahin Elyaşiv ilə qardaşları
qalxıb Qoyun darvazasını tikdilər.
Sonra onu təqdis edib qapı taylarını
yerinə qoydular. Onlar Yüz qülləsin-
dən Xananel qülləsinə qədər olan di-
varı təqdis etdilər. 2Elyaşivin yanın-
dakı hissədə Yerixo sakinləri tikdilər.
Onların yanında İmri oğlu Zakkur
tikdi.

3Balıqlar darvazasını Hassenaa
oğulları tikdi. Onlar tirləri yerinə
qoydular, qapı taylarını, rəzələrini və
cəftələrini yerinə taxdılar. 4Onların
yanında isə Haqqos oğlu Uriya oğlu
Meremot bərpa işləri gördü. Meremo-
tun yanında Meşezavel oğlu Berekya
oğlu Meşullam bərpa işləri gördü.
Onların yanında da Baana oğlu Sadoq
bərpa etdi. 5Sadoqun yanında Teqoa
sakinləri bərpa işləri gördülər, amma
oranın əsilzadələri özlərinin Xudavən-
dinin işlərini görmək üçün qəddini əy-
mədilər.

6Köhnə darvazasını Paseah oğlu
Yoyada və Besodya oğlu Meşullam
bərpa etdi. Onlar tirləri yerinə qoyub
qapı taylarını, rəzələri və cəftələri
taxdılar. 7Onların yanında Giveonlu
Melatya, Meronotlu Yadon, Fərat
çayının qərbindəki torpaqların vali-
sinin hökmünə tabe olan Giveon və
Mispa sakinləri bərpa işləri gördü.
8Onların yanında da zərgərlərdən Xar-
haya oğlu Uzziel bərpa işləri gördü.
Uzzielin yanında ətriyyatçılardan biri
olan Xananya bərpa işləri gördü.
Onlar Yerusəlimi Geniş divara qədər
təzədən qurdular. 9Onların yanındakı
divarı Yerusəlim əyalətinin yarı hissə
rəisi Xur oğlu Refaya bərpa etdi.
10Xarumaf oğlu Yedaya isə onun
yanında öz evinin qarşısında bərpa
işləri gördü. Onunla yanaşı Xaşavneya
oğlu Xattuş bərpa işləri görürdü.
11Xarim oğlu Malkiya və Paxat-Moav
oğlu Xaşşuv başqa bir sahəni və

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 570



Sobalar Qülləsini bərpa etdi. 12Malki-
yanın və Xaşşuvun yanında Yerusəlim
əyalətinin o biri yarısının rəisi Hal-
loxeş oğlu Şallum qızları ilə birgə
bərpa işləri gördü.

13Vadi darvazasını Xanun və
Zanoah sakinləri bərpa etdi. Onlar
darvazanı təzədən tikib qapı taylarını,
rəzələrini və cəftələrini yerinə vur-
dular. Peyin darvazasına qədər min
qulac məsafəyə divarı bərpa etdilər.

14Peyin Darvazasını Bet-Hakkerem
əyalətinin rəisi Rekav oğlu Malkiya
bərpa etdi. Oranı təzədən tikib qapı
taylarını, rəzələrini və cəftələrini ye-
rinə vurdu.

15Çeşmə darvazasını Mispa əyalə-
tinin rəisi Qal-Xoze oğlu Şallun bərpa
edərək oranı təzədən tikib üstünü
örtdü və qapı taylarını, rəzələrini,
cəftələrini yerinə vurdu. O, Padşah
bağçasının yanında Şelah hovuzunun
divarını da Davudun şəhərindən enən
pilləkənə qədər bərpa etdi. 16Şallun-
dan sonra Bet-Sur əyalətinin yarı hissə
rəisi Azbuq oğlu Nehemya divarı
Davudun qəbrinin qarşısına, hovuza
və əsgər qışlasına qədər tikdi. 17Ondan
sonra isə Levililər Bani oğlu Rexumun
rəhbərliyi altında bərpa işləri gördülər.
Rexumun yanında Qeila əyalətinin
yarı hissə rəisi Xaşavya öz əyaləti üçün
bərpa işləri gördü. 18Xaşavyadan son-
ra onların qardaşları, Qaila əyalətinin
yarı hissə rəisi Xenadad oğlu Binnuy
bərpa işləri gördülər. 19Onun yanında
Mispa əyalətinin rəisi Yeşua oğlu Ezer
silah anbarına çıxan yolun qarşısından
divarın küncünə qədər başqa sahəni
bərpa etdi. 20Onun yanında Zabbay
oğlu Baruk divarın küncündən baş
kahin Elyaşivin evinin qapısına qədər
olan başqa bir sahəni səylə bərpa etdi.
21Ondan sonra Haqqos oğlu Uriya
oğlu Meremot, Elyaşivin evinin giri-
şindən axırına qədər bərpa etdi.
22Ondan sonra isə o düzənlikdə
yaşayan kahinlər bərpa işləri gördülər.
23Onlardan sonra Binyamin və Xaş-
şuv öz evlərinin yanındakı sahəni
bərpa etdilər. Onlardan sonra Ananya
oğlu Maaseya oğlu Azarya öz evinin
yanındakı sahəni bərpa etdi. 24Azar-
yadan sonra Xenadad oğlu Binnuy
Azaryanın evindən divarın künc-
bucaqlarına qədər olan sahəni bərpa
etdi. 25Uzay oğlu Palal divarın küncü-
nün qarşısından və padşahın yuxarı
sarayından irəli çıxan mühafizəçilər
həyətinin yanında olan gözətçilik
qülləsindən başlayaraq bərpa işləri
gördü. Ondan sonra Paroş oğlu Pe-
daya ilə 26Ofeldə yaşayan məbəd qul-
luqçuları şərqə doğru Su darvazasının
qarşısını və gözətçi qülləsinə qədər
sahəni bərpa etdilər.

27Onların yanında Teqoa sakinləri
böyük gözətçi qülləsindən Ofel divar-
ınadək olan başqa bir sahəni bərpa
etdilər.

28At darvazasının yuxarı hissəsində
kahinlərdən hər biri öz evinin qabağını
bərpa etdi. 29Kahinlərdən sonra İm-
mer oğlu Sadoq öz evinin qabağını
bərpa etdi. Ondan sonra Şərq qapı-
sının gözətçisi Şekanya oğlu Şemaya
bərpa işləri gördü. 30Ondan sonra
Şelemya oğlu Xananya və Salafın
altıncı oğlu Xanun bir sahəni bərpa
etdi. Xananya və Xanundan sonra
Berekya oğlu Meşullam öz evinin
qarşısını bərpa etdi. 31Ondan sonra
Malkiya adlı bir zərgər məbəd qulluq-
çularının və tacirlərin Nəzarət dar-
vazasının qarşısındakı binasına və
divarın künc tərəfindəki otağa qədər

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 571



sahəni bərpa etdi. 32Divarın künc
tərəfindəki otağı ilə Qoyun darvaza-
sının arasını zərgərlər və tacirlər bərpa
etdilər.

### *Düşmənlərin Yəhudilərə rişxənd etməsi*

4 1Sanballat divarı tikdiyimiz barə-
də eşidəndə qanı qaraldı, qəzəb-
ləndi və biz Yəhudilərə rişxənd etməyə
başladı. 2O, soydaşlarının və Sama-
riyalıların silahlı dəstəsinin qarşısında
belə dedi: «Bu yazıq Yəhudilər nə
edirlər? Onlar buranı təzədən qura-
caqlarmı? Onlar qurban kəsəcəklərmi?
Görəsən bu işi bir gün bitirə biləcək-
lərmi? Məgər yanmış viranəlikdən
yenidən daşlar yaradacaqlar?» 3Onun
yanında olan Ammonlu Toviya belə
dedi: «Əgər tikdikləri daş divarın üs-
tünə bir tülkü çıxarsa, ora dağılacaq».

### *Nehemyanın dua ilə cavab verməsi*

4Eşit, ey Allahımız, çünki bizə xor
baxırlar. Qoy həqarətləri öz başlarına
düşsün və əsir düşdükləri ölkədə talan
olunsunlar! 5Onların günahını əfv
etmə və qoy təqsirləri Sənin yadından
çıxmasın! Axı onlar bənnaları təhqir
etdilər.

### *Bərpa işlərinin davam etdirilməsi*

6Biz divarın bərpasını davam etdir-
dik və onun hər yeri hündürlüyünün
yarısına qədər bitişdirildi. Çünki xalq
ürəkdən çalışırdı.

7Sanballat, Toviya, Ərəblər, Am-
monlular və Aşdodlular Yerusəlim
divarının bərpa işlərinin irəlilədiyini və
dağıdılmış yerlərin tikildiyini eşidəndə
çox hirsləndilər. 8Onların hamısı Ye-
rusəlimə gəlib hücum etmək və orada
qarmaqarışıqlıq salmaq üçün əlbir
oldu. 9Lakin biz Allahımıza dua etdik
və divarın üstündə onların hədə-
qorxusu qarşısında gecə-gündüz gözət-
çilər qoyduq. 10O zaman Yəhudalılar
deyirdi: «İşləyənlər taqətdən düşüb,
töküntü isə çoxdur. Ona görə də biz bu
divarı daha tikə bilmərik».

11Düşmənlərimiz isə dedilər: «Biz
Yəhudilərin arasına girib onları öl-
dürək. Bu işi elə edək ki, kimsə nə
görsün, nə də başa düşsün». 12Onların
yanında yaşayan Yəhudilər gəlib bizə
on dəfə dedilər ki, düşmənlər hər
tərəfdən bizə hücum edəcək. 13Buna
görə də mən qılınclı, nizəli, ox-kamanlı
xalqı nəsilbənəsil divarın arxasındakı
ən aşağıdakı açıq yerlərə düzdüm.
14Bu vəziyyəti görəndə mən qalxıb
əyanlara, hökumət məmurlarına və
xalqın qalan hissəsinə belə dedim:
«Onlardan qorxmayın! Böyük və
zəhmli Xudavəndi xatırlayın! Siz
soydaşlarınız, oğullarınız, qızlarınız,
arvadlarınız və evləriniz uğrunda
vuruşacaqsınız».

15Düşmənlərimiz eşitdi ki, bu iş bizə
məlum olub, çünki Allah onların
niyyətini boşa çıxarmışdı. Buna görə
hamımız işimizə, divarın tikintisinə
qayıtdıq. 16O gündən sonra adamla-
rımın yarısı tikintidə çalışdı. Yarısı isə
nizələri, qalxanları, ox-kamanlarını
tutub zireh geydi. Rəislər bütün divar
tikən Yəhuda xalqının arxasında keşik
çəkirdi. 17Yük daşıyan fəhlələr bir əli
ilə iş görür, o biri əli ilə silah tuturdu.
18Bənnaların da hər biri qılıncı belinə
bağlayaraq divar tikirdi. Şeypurçu isə
mənim yanımda idi. 19Əyanlara,
hökumət məmurlarına və xalqın qalan
hissəsinə dedim: «İşimiz çoxdur, tikin-
ti sahəmiz genişdir. Biz divar üzərində
olan ayrı-ayrı sahələrdə bir-birimizdən
uzaqdayıq. 20Harada şeypur səsi eşit-

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 572



səniz, oraya – yanımıza toplanın. Al-
lahımız bizim üçün vuruşacaq».
21Beləliklə, işimizi gördük və xalqın
yarısı dan söküləndən ulduzlar görü-
nənə qədər nizə tutmuşdu. 22O vaxt
mən camaata dedim: «Hər kəs öz
nökəri ilə birgə Yerusəlimdə gecələsin
və gecə keşikdə durub, gündüz isə
işləsin». 23Nə mən, nə soydaşlarım, nə
nökərlərim, nə də arxamda dayanan
keşikçilər, heç birimiz paltarlarımızı
soyunmadıq. Su gətirəndə də silah
əlimizdə idi.

### *Nehemyanın ədalətsizliklə üzləşməsi*

5 1O zaman xalqın kişiləri və qadın-
ları Yəhudi soydaşlarından bərk
şikayət etməyə başladılar. 2Bəziləri
belə deyirdi: «Bizim külfətimiz böyük,
oğullarımız, qızlarımız çoxdur. Yaşa-
maq üçün yeməyə taxıl tapmalıyıq».
3Bəziləri isə belə deyirdi: «Qıtlığın
üzündən tarlalarımızı, bağlarımızı və
evlərimizi girov qoyuruq ki, taxıl
tapaq». 4Belə deyənlər də var idi:
«Padşahın tarlalarımıza və bağları-
mıza qoyduğu vergini ödəmək üçün
borc pul aldıq. 5İndi bizimlə soydaş-
larımız eyni nəsildir, bizim uşaqla-
rımız da onlarınkından fərqlənmir.
Budur, oğullarımızı və qızlarımızı kölə
kimi satmağa məcburuq. Artıq qızla-
rımızdan bəziləri belə, satıldı. Lakin
biçarəyik, çünki tarlalarımız və bağ-
larımız başqalarının əlindədir».
6Mən onların şikayət və ittiham-
larını eşidəndə çox qəzəbləndim.
7Ciddi düşündükdən sonra əyanlarla
hökumət məmurlarını tənbeh edib belə
dedim: «Siz hamınız soydaşlarınıza
sələmlə pul verirsiniz». Onların əley-
hinə böyük yığıncaq topladım. 8Mən
onlara dedim: «Biz yadellilərə kölə
kimi satılan Yəhudi soydaşlarımızı
gücümüz çatana qədər satın alırıq. Siz
isə soydaşlarımızı satırsınız ki, onları
təzədən bizə satsınlar?» Onlar deməyə
bir söz tapmayıb susdular. 9Sonra mən
dedim: «Etdiyiniz bu iş yaxşı deyil. Siz
düşmənlərimiz olan yadelli millətlərin
danlağından qurtulmaq üçün Alla-
hımıza ehtiram göstərərək yaşamalı
deyilsinizmi? 10Mən də qardaşlarım və
nökərlərimlə birgə onlara pul və taxıl
borc verirəm. Gəlin bu sələmçiliyi
dayandıraq. 11İndi isə bu gün onlara
tarlalarını, bağlarını, zeytunluqlarını,
evlərini, onlardan aldığınız pulun,
taxılın, təzə şərabın və yağın sələmini
geri qaytarın». 12Əyanlar və hökumət
məmurları dedilər: «Biz bunları qay-
tararıq və daha onlardan heç bir şey
tələb etmərik. Sən necə deyirsən, biz
də elə edərik». Mən kahinləri çağırdım
və bu sözə əməl edəcəkləri barədə
onları and içdirdim. 13Sonra ətəyimi
silkələyib dedim: «Qoy bu sözə əməl
etməyən hər kəsi Allah evindən, mal-
mülkündən silkələyib ataraq boş yerdə
qoysun!» Bütün camaat «Amin» deyib
Rəbbə həmd etdi. İcma bu sözlərə
əməl etdi.

### *Nehemyanın təmənnasız xidməti*

14Bundan əlavə, padşah Artaxşas-
tanın hökmranlığının iyirminci ilindən
otuz ikinci ilinə qədər – Yəhuda
torpağına vali təyin edildiyim gündən
bəri on iki il mən və qardaşlarım
valilərə təyin olunmuş azuqəni iş-
lətmədik. 15Amma məndən əvvəlki
valilər xalqın üzərində yük olmuşdu.
Onlardan çörək və şərabdan əlavə,
qırx şekel gümüş alırdılar. Hətta o

**5:7** *Çıx. 22:25; Lev. 25:35-37; Qanun. 23:19-20*

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 573



valilərin nökərləri də xalqa ağalıq
edirdi. Mən isə Allah qorxusuna görə
belə etmirdim. 16Mən özümü bu
divarın bərpasına həsr etdim. Biz bir
tarla belə, almadıq. Bütün nökərlərim
oraya – iş başına toplaşmışdı. 17Ətraf
millətlərdən yanımıza gələnlərdən
əlavə, Yəhudilərdən və məmurlardan
da yüz əlli adam süfrəmdə otururardı.
18Hər gün mənim üçün bir öküz, altı
seçmə qoyun və toyuqlar kəsilərdi. On
gündən bir müxtəlif növ bol-bol şərab
gətirilərdi. Buna baxmayaraq, mən
valilərə təyin olunmuş azuqəni tələb
etmirdim, onsuz da xalqın yükü ağır
idi.

19Ey Allahım, bu xalq üçün etdiyim
işlərə görə məni yaxşılıqla xatırla!

### *Düşmənlərin fənd işlətməsi*

6 1Divarı bərpa etdiyimi və orada
uçuq-söküyün qalmadığını San-
ballata, Toviyaya, Ərəb Geşemə və
başqa düşmənlərimizə xəbər verdilər.
Lakin mən o vaxta qədər darvazaların
qapı taylarını yerinə vurmamışdım.
2Sanballat və Geşem yanıma adam
göndərib dedi: «Gəl Ono düzənli-
yindəki kəndlərin birində görüşək».
Amma onlar mənə pislik etmək niy-
yətində idi. 3Mən onların yanına qasid
göndərib dedim: «Böyük bir iş gö-
rürəm və oraya enə bilmərəm. Bu işi
qoyub yanınıza endiyim müddət ərzin-
də iş nə üçün dayansın?» 4Düşmənlər
yanıma dörd dəfə bu xəbəri göndərdi
və mən onlara eyni cavab verdim.
5Sanballat beşinci dəfə nökərini eyni
xəbərlə mənim yanıma yolladı və onun
əlində möhürlənməmiş namə var idi.
6Məktubda belə yazılmışdı:

«Başqa millətlər arasında söz
yayılıb və Geşem deyir ki, sən və
Yəhudilər üsyan etmək niyyətində-
siniz. Divarı da buna görə tikirsən.
Şayiələrə görə sən onların padşahı
olmaq istəyirsən. 7"Yəhudada pad-
şah var" deyə özün haqqında car
çəkmək üçün Yerusəlimdə peyğəm-
bərlər də təyin etmisən. İndi isə bu
sözlər padşaha çatacaq. Buna görə
də gəl bu barədə birlikdə məslə-
hətləşək».

8O vaxt Sanballatın yanına adam
göndərib dedim: «Dediyin şeylərin heç
biri olmayıb, sən onları özündən uy-
durmusan». 9Çünki hamı bizi qorxut-
mağa çalışıb deyirdi: «Bu işdən əlləri
soyuyacaq və bu iş baş tutmayacaq».
Ay Allah, indi Sən əllərimə qüvvət ver!

10Mən Mehetavel oğlu Delaya oğlu
Şemayanın evinə getdim. O, evinə
qapanıb qalmışdı. Mənə dedi: «Gəl
Allahın evində – məbəddə görüşək və
qapılarını bağlayaq. Çünki səni öldür-
məyə adamlar gələcək. Bəli, gecə ikən
səni öldürməyə gələcəklər». 11Mən isə
dedim: «Mənim kimi adam qaçarmı?
Canını qurtarmaq üçün məbəddə giz-
lənərmi? Əsla belə etmərəm!» 12Bunu
başa düşdüm ki, Şemayanı Allah gön-
dərməmişdi. Bu peyğəmbərlik sözünü
mənə qarşı ona görə söyləmişdi ki,
Toviya ilə Sanballat onu pulla tutmuş-
du. 13O məni qorxutmaq üçün muzdla
tutulmuşdu ki, mən dediyini edib
günaha batım. Beləcə məni pisləyib
hörmətdən salmağa fürsət axtarırdılar.

14Ey Allahım, Toviya ilə Sanballatı,
həm də məni qorxutmaq istəyən qadın
peyğəmbər Noadyanı və digər pey-
ğəmbərləri bu əməllərinə görə yadda
saxla!

### *Divarın tikintisinin tamamlanması*

15Elul ayının iyirmi beşində, əlli iki

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 574



gün ərzində divarın tikintisi tamam-
landı. 16Bütün düşmənlərimiz, ətrafı-
mızdakı xalqlar bunu eşidəndə qorx-
dular və öz gözlərində çox kiçildilər.
Çünki onlar başa düşdülər ki, bu iş Al-
lahımızın köməyi ilə edilib.

17Həm də o günlər Yəhudanın
əyanları Toviyaya çoxlu namə gön-
dərirdi və Toviyadan da onlara ca-
vablar gəlirdi. 18Toviya Arah oğlu
Şekanyanın kürəkəni olduğuna görə
Yəhudada çox adam onunla əhd
bağlamışdı. Həm də Toviyanın oğlu
Yehoxanan Berekya oğlu Meşullamın
qızını almışdı. 19Əyanlar onun yaxşı
işləri haqqında mənim yanımda danı-
şardılar və mənim sözlərimi ona çatdı-
rardılar. Toviya məni qorxutmaq üçün
namələr göndərirdi.

7 1Divar tikilib qurtaranda və mən
qapı taylarını vuranda məbəd
qapıçıları, ilahiçilər və Levililər təyin
olundu. 2Qardaşım Xananini və qala
rəisi Xananyanı Yerusəlimə məmur
təyin etdim. Çünki Xanani çoxların-
dan sadiq və Allahdan qorxan adam
idi. 3Mən onlara dedim: «Gün qızana
qədər Yerusəlimin darvazaları açılma-
sın. Qapıçılar oyaq olduğu müddət
qapıları bağlayıb qıfıllayın. Yerusə-
limdə yaşayanlardan da keşikçi təyin
edin, qoy hamı öz evinin qabağında
keşik çəksin».

### *Sürgündən Yəhudaya qayıdanların siyahısı*

*(Ezr. 2:1-70)*

4Şəhər geniş və böyük idi, lakin
içində adam az idi. Evlər hələ tikil-
məmişdi.

5Allahım ürəyimə fikir göndərdi ki,
əyanları, hökumət məmurlarını və
habelə xalqı yığıb siyahıya alım. Mən
ilk qayıdanların nəsil şəcərələrinin
siyahısını əldə edib, içində belə bir yazı
tapdım:

6Babil padşahı Navuxodonosorun
əsir aldığı adamlar yaşadıqları vila-
yətdən Yerusəlimə və Yəhudadakı öz
şəhərlərinə qayıtdı. 7Bunlar Zerub-
babil, Yeşua, Nehemya, Azarya,
Raamya, Naxamani, Mordokay,
Bilşan, Misperet, Biqvay, Nexum və
Baananın başçılığı ilə gəldi.

Sürgündən qayıdan İsraillilərin
sayı:

8Paroş övladları – 2172 nəfər;
9Şefatya övladları – 372 nəfər;
10Arah övladları – 652 nəfər;
11Yeşua və Yoav nəslindən Paxat-Moav övladları – 2818 nəfər;
12Elam övladları – 1254 nəfər;
13Zattu övladları – 845 nəfər;
14Zakkay övladları – 760 nəfər;
15Binnuy övladları – 648 nəfər;
16Bevay övladları – 628 nəfər;
17Azqad övladları – 2322 nəfər;
18Adoniqam övladları – 667 nəfər;
19Biqvay övladları – 2067 nəfər;
20Adin övladları – 655 nəfər;
21Ater, yəni Xizqiya övladları – 98 nəfər;
22Xaşum övladları – 328 nəfər;
23Besay övladları – 324 nəfər;
24Xarif övladları – 112 nəfər;
25Giveon övladları – 95 nəfər;
26Bet-Lexem və Netofa sakinləri – 188 nəfər;
27Anatot sakinləri – 128 nəfər;
28Bet-Azmavet sakinləri – 42 nəfər;
29Qiryat-Yearim, Kefira və Beerot sakinləri – 743 nəfər;
30Rama və Geva sakinləri – 621 nəfər;
31Mikmas sakinləri – 122 nəfər;
32Bet-El və Ay sakinləri – 123

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 575



nəfər;
33 Digər Nevo sakinləri – 52 nəfər;
34 Digər Elam övladları – 1254
nəfər;
35 Xarim övladları – 320 nəfər;
36 Yerixo övladları – 345 nəfər;
37 Lod, Xadid və Ono övladları –
721 nəfər;
38 Senaa övladları – 3930 nəfər.
39 Kahinlər:
Yeşua nəslindən Yedaya
övladları – 973 nəfər;
40 İmmer övladları – 1052 nəfər;
41 Paşxur övladları – 1247 nəfər;
42 Xarim övladları – 1017 nəfər.
43 Levililər: Hodavya nəslindən Ye-
şua ilə Qadmiel övladları – 74 nəfər.
44 İlahiçilər: Asəf övladları – 148
nəfər.
45 Məbəd qapıçıları: Şallum övlad-
ları, Ater övladları, Talmon övladları,
Aqquv övladları, Xatita övladları,
Şovay övladları – 138 nəfər.
46 Məbəd qulluqçuları: Sixa övlad-
ları, Xasufa övladları, Tabbaot övlad-
ları, 47 Qeros övladları, Siya övladları,
Padon övladları, 48 Levana övladları,
Xaqava övladları, Şalmay övladları,
49 Xanan övladları, Giddel övladları,
Qaxar övladları, 50 Reaya övladları,
Resin övladları, Neqoda övladları,
51 Qazzam övladları, Uzza övladları,
Paseah övladları, 52 Besay övladları,
Meunim övladları, Nefuşsim övlad-
ları, 53 Baqbuq övladları, Xaqufa öv-
ladları, Xarxur övladları, 54 Baslit
övladları, Mexida övladları, Xarşa
övladları, 55 Barqos övladları, Sisra
övladları, Tamax övladları, 56 Nesiah
övladları, Xatifa övladları.
57 Süleymanın əyanlarının nəslin-
dən: Sotay övladları, Soferet övladları,
Perida övladları, 58 Yaala övladları,
Darqon övladları, Giddel övladları,
59 Şefatya övladları, Xattil övladları,
Pokeret-Hassevayim övladları, Amon
övladları. 60 Məbəd qulluqçuları ilə
Süleymanın əyanlarının övladları –
cəmi 392 nəfər.
61 Tel-Melahdan, Tel-Xarşadan,
Keruvdan, Addondan, İmmerdən
qayıdan, ancaq ailələrinin və nəsil-
lərinin İsrail övladlarından olduğunu
sübut edə bilməyənlər bunlardır:
62 Delaya övladları, Toviya övladları,
Neqoda övladları – 642 nəfər.
63 Kahinlərdən: Xovaya övladları,
Haqqos övladları, Gileadlı Barzillayın
qızlarından arvad alıb qayınatasının
adını götürən Barzillay övladları.
64 Bunlar nəsil şəcərəsini axtardılar,
lakin öz adlarını tapa bilmədilər və
buna görə murdar sayılaraq kahin-
likdən çıxarıldılar. 65 Yəhudi valisi
onlara əmr edib belə dedi: «Urim və
Tummimi işlədən bir kahin olmayınca
onlar ən müqəddəs yeməklərdən ye-
məsin».
66 7337 nəfər kölə və kənizlərdən
başqa, 67 bütün camaat birlikdə 42 360
nəfər idi. Onların kişi və qadınlardan
ibarət 245 ilahiçisi var idi. 68 Bu adam-
ların 736 atı və 245 qatırı, 69 435 dəvəsi,
6720 eşşəyi var idi.
70 Nəsil başçılarının bəziləri işin
görülməsi üçün könüllü ianələr ver-
dilər. Vali xəzinəyə 1000 darik[a] qızıl,
50 ləyən, 530 kahin cübbəsi verdi.
71 Nəsil başçılarından bəziləri iş üçün
xəzinəyə 20 000 darik qızıl və 2200
mina gümüş verdilər. 72 Xalqın sağ
qalanlarının verdikləri 20 000 darik
qızıl, 2000 mina gümüş, 67 kahin cüb-
bəsi idi.

a **7:70** *Darik* – qızıl sikkə.

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 576



73Kahinlərlə Levililər, qapıçılarla
ilahiçilər, xalqın bəzisi, məbəd qulluq-
çuları və bütün İsraillilər öz şəhərlə-
rində yerləşdilər. Yeddinci ay çatanda
artıq İsraillilər öz şəhərlərində idi.

### *Ezranın Qanunu oxuyub izah etməsi*

8 1Bütün xalq bir nəfər kimi Su
darvazasının qarşısındakı meyda-
na toplaşdı. Xalq ilahiyyatçı Ezraya
dedi ki, Rəbbin İsraillilərə əmr etdiyi
Musanın Qanun kitabını gətirsin.
2Yeddinci ayın birinci günü Ezra
Qanunu kişilərdən, qadınlardan və
dinləyib anlaya bilən uşaqlardan
ibarət olan camaatın qabağına gətirdi.
3Ezra Su darvazasının qarşısındakı
meydanda kişilərin, qadınların və
anlaya bilənlərin qabağında səhər açı-
landan günortaya qədər bu kitabdan
oxudu. Bütün xalq Qanun kitabına
qulaq asdı. 4İlahiyyatçı Ezra bu iş
üçün taxtadan düzəldilmiş hündür
kürsünün üstünə çıxdı. Onun sağ tərə-
fində Mattitya, Şema, Anaya, Uriya,
Xilqiya və Maaseya, solunda isə
Pedaya, Mişael, Malkiya, Xaşum,
Xaşbaddana, Zəkəriyyə və Meşullam
dayanmışdı. 5Ezra bütün xalqın gözü
qabağında kitabı açdı, çünki o bütün
xalqdan daha yüksəkdə durmuşdu. O,
kitabı açanda bütün xalq ayağa
qalxdı. 6Ezra ulu Allaha, Rəbbə həmd
etdi və bütün xalq əllərini qaldıraraq
«Amin! Amin!» deyə cavab verdi.
Sonra baş əydilər və üzüstə yerə
döşənib Rəbbə səcdə qıldılar. 7Yeşua,
Bani, Şerevya, Yamin, Aqquv, Şabbe-
tay, Hodiya, Maaseya, Qelita, Azarya,
Yozavad, Xanan, Pelaya adlı Levililər
Qanunu xalqa izah etdilər. Xalq isə
yerində dayanmışdı. 8Onlar Allahın
Qanun kitabından oxuyub aydınlaş-
dırdılar və mənasını camaata izah
etdilər ki, oxunan ayələr başa düşül-
sün.
9Vali Nehemya, kahin ilahiyyatçı
Ezra və xalqı öyrədən Levililər hamıya
dedilər: «Bu gün Allahınız Rəbb üçün
müqəddəs gündür. Buna görə kədər-
lənməyin və ağlamayın». Çünki bütün
xalq Qanunun sözlərini eşidərkən
ağlayırdı. 10Nehemya da onlara dedi:
«Gedin, yağlı yemək yeyin, şirin içki
için və hazırlıqlı olmayanlara da pay
göndərin, çünki bu gün Xudavəndimiz
üçün müqəddəsdir. Kədərlənməyin,
çünki Rəbbin verdiyi sevinc sizin
qüvvətinizdir». 11Levililər «susun, kə-
dərlənməyin, çünki bu gün müqəddəs-
dir» deyə bütün xalqı sakitləşdirdilər.
12Bütün xalq yeyib-içməyə, paylar
göndərməyə və böyük şənlik etməyə
getdi. Çünki xalq ona deyilənləri başa
düşdü.

### *Çardaqlar bayramının qeyd olunması*

13Ertəsi gün bütün xalqın nəsil baş-
çıları, kahinlər və Levililər Qanunun
sözlərini dinləmək üçün ilahiyyatçı
Ezranın yanına toplaşdı. 14Rəbbin
Musa vasitəsilə buyurduğu Qanunda
bu yazını tapdılar: «İsrail övladları
yeddinci ayın bayram günlərində
çardaqlarda yaşasın». 15Onlar bütün
şəhərlərdə və Yerusəlimdə bu xəbəri
elan edib yaydılar: «Dağa çıxın,
yazıldığı kimi çardaq qurmaq üçün
zeytun, cır zeytun, mərsin, xurma və
sıx yarpaqlı ağacların budaqlarını
buraya gətirin». 16Bütün xalq çıxıb
budaq gətirdi, hər kəs öz evinin
damında, həyətlərində, Allah evinin
həyətində, Su darvazasındakı mey-

**7:73** *1Saln. 9:2; İbr. 11:3* **8:1** *Ezr. 3:1* **8:14-15** *Lev. 23:33-36,39-43; Qanun. 16:13-15*

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 577



danda və Efrayim darvazasındakı
meydanda özlərinə çardaq düzəltdi.
17Bütün əsirlikdən geri qayıdan ca-
maat çardaqlar düzəldib orada qaldı.
Əslində Nun oğlu Yeşuanın dövrün-
dən bu günə qədər İsrail övladları belə
etməmişdi. Çox böyük sevinc oldu.
18Ezra birinci gündən sonuncu günə
qədər hər gün Allahın Qanun kita-
bından oxuyurdu. Onlar yeddi gün
bayram keçirtdilər, səkkizinci gün isə
qayda-qanuna görə təntənəli toplantı
quruldu.

### *Xalqın orucu və tövbəsi*

9 1Həmin ayın iyirmi dördüncü
günü İsrail övladları oruc tutaraq
əyinlərində çul və başları toz-torpaq
içində toplandı. 2İsrail övladları nəsli
bütün yadellilərdən ayrılaraq durub öz
günahlarını və atalarının şər işlərini
etiraf etdi. 3Onlar olduqları yerdə
dayanıb günün dörddə bir hissəsini
özlərinin Allahı Rəbbin Qanun kita-
bından oxudular. Günün digər dörddə
bir hissəsini isə günahlarını etiraf edib
özlərinin Allahı Rəbbə səcdə qıldılar.

4Yeşua, Bani, Qadmiel, Şevanya,
Bunni, Şerevya, Bani və Kenani
Levililərin pilləkəninin üstünə qalxıb
özlərinin Allahı Rəbbə uca səslə yal-
vardılar. 5Levililər – Yeşua, Qadmiel,
Bani, Xaşavneya, Şerevya, Hodiya,
Şevanya, Petahya dedilər: «Ayağa
qalxın və əbədi olan Allahınız Rəbbə
həmd edin! Qoy Sənin izzətli adına
həmd olsun və etdiyiniz bütün həmd-
lərdən, şükürlərdən də çox ucaldılsın!

6Sən, yalnız Sən Rəbsən, göyləri,
göylərin ən uca qatlarını və bütün
səma cisimlərini, yer üzünü və onun
məxluqlarını, dənizləri və içindəki hər
şeyi Sən yaratdın və hamısına həyat
verirsən. Səma cisimləri Sənə səcdə
qılır! 7Ya Rəbb, Sən o Allahsan ki,
İbramı seçib[1] Xaldeylilərin Ur şəhə-
rindən çıxararaq ona İbrahim adını
verdin.[2] 8Sən Öz önündə onun sadiq
ürəyini gördün. Ona görə də Kənan-
lıların, Xetlilərin, Emorluların, Pe-
rizlilərin, Yevusluların və Qirqaşlıların
diyarını İbrahim övladlarına vermək
üçün onunla əhd kəsdin və sözlərini
yerinə yetirdin. Çünki Sən adilsən.

9Misirdə atalarımızın çəkdikləri
əziyyəti gördün[1] və Qırmızı dənizin
yanındakı fəryadlarını eşitdin.[2] 10Fi-
ronla bütün əyanlarına və ölkəsinin
bütün xalqına əlamətlər və möcüzələr
göstərdin. Çünki Misirlilərin atala-
rımıza qarşı azğınlıq etdiyini bildin və
bu günə kimi adını izzətləndirdin.
11Atalarımızın qarşısında dənizi yar-
dın və onlar dənizin ortasında quru
yerdən keçib getdilər.[1] Onları təqib
edənləri isə dərinliklərə, coşğun sulara
atılan bir daş kimi atdın.[2] 12Ataları-
mıza gündüz bulud dirəyi ilə, gecələr
isə gedəcəkləri yolu nurlandırmaq
üçün od dirəyi ilə yol göstərdin. 13Sina
dağının üstünə enib onlarla göylərdən
danışdın. Onlara ədalətli hökmlər,
doğru qanunlar, yaxşı qaydalar və
əmrlər verdin. 14Sən müqəddəs Şənbə
gününü onlara bildirdin və qulun
Musa vasitəsilə əmrləri, qaydaları və
qanunu buyurdun. 15Atalarımız acan-
da onlara göylərdən çörək göndərdin.[1]
Susayanda onlar üçün qayadan su
çıxardın.[2] Atalarımıza əmr verdin ki,

---

**9:7 –** [1]*Yar. 12:1;* [2]*Yar. 17:5* **9:8** *Yar. 15:18-21* **9:9 –** [1]*Çıx. 3:7;* [2]*Çıx. 14:10-12*
**9:10** *Çıx. 7:8-12:32* **9:11 –** [1]*Çıx. 14:21-29;* [2]*Çıx. 15:4-5* **9:12** *Çıx. 13:21-22*
**9:13-14** *Çıx. 19:18-23:33* **9:15 –** [1]*Çıx. 16:4-15;* [2]*Çıx. 17:1-7*

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 578



vəd etdiyin torpağa girib sahib ol-
sunlar.[3]

16Lakin atalarımız təkəbbürlü olub
dikbaşlıq etdilər və Sənin əmrlərini
dinləmədilər. 17İtaət etmək istəməyib
Sənin onlar üçün göstərdiyin möcüzə-
ləri yada salmadılar, dikbaşlıq etdilər,
üsyankarlıqları ilə köləlik həyatlarına
qayıtmaq üçün özlərinə bir başçı təyin
etdilər. Lakin Sən bağışlamağı sevən,
lütfkar, rəhmli, çox səbirli və bol
məhəbbəti olan Allah olduğuna görə
onları tərk etmədin. 18Hətta ataları-
mız özləri üçün tökmə dana düzəldib
"Budur, səni Misirdən çıxaran Alla-
hın!" deyə böyük küfr edəndə 19Sən Öz
böyük mərhəmətin naminə onları
səhrada tək qoymadın. Gündüz onlara
yolda bələdçilik etmək üçün bulud
dirəyini, gecələr isə gedəcəkləri yolu
nurlandırmaq üçün od dirəyini qabaq-
larından əskik etmədin. 20Sən onlara
nəsihət vermək üçün Öz xeyirxah
Ruhunu verdin. İsrail övladlarının
ağızlarından mannanı əsirgəmədin,
susayanda su verdin. 21Qırx il onları
səhrada bəslədin və onlar heç nədən
korluq çəkmədi. Nə paltarları köhnəl-
di, nə ayaqları şişdi. 22Ölkələri və
xalqları onlara təslim edərək torpaq-
larını aralarında bölüşdürdün. Onlar
Sixonun ölkəsini, yəni Xeşbon padşa-
hının ölkəsini və Başan padşahı Oqun
ölkəsini ələ keçirtdi. 23Övladlarını
göydəki ulduzlar qədər çoxaltdın.[1]
Onların atalarına "oraya girib sahib
olsunlar" deyə vəd etdiyin ölkəyə
gətirdin.[2] 24Onların övladları o tor-
pağa girib sahib oldular. Sən oranın
əhalisini – Kənanlıları onlara tabe
etdirib padşahlarını ölkənin əhalisi ilə
bərabər onlara təslim etdirdin ki, o
adamlarla istədikləri kimi rəftar
etsinlər. 25Onlar möhkəmlənmiş
şəhərləri və bərəkətli torpağı tutub
mal-dövlətlə dolu evlərə, qazılmış
quyulara, bağlara, zeytunluqlara və
bol-bol meyvə ağaclarına sahib
oldular. Yeyib doydular, kökəldilər və
verdiyin böyük nemətlər üçün sevin-
dilər.

26Lakin onlar itaətsizlik edərək
Sənə qarşı üsyankar oldular. Qanu-
nuna arxa çevirdilər, Sənə tərəf dön-
mək üçün onlara xəbərdarlıq edən
peyğəmbərlərini öldürdülər və böyük
küfr etdilər. 27Onda Sən onları düşmə-
nə təslim etdin. Düşmənləri də onlara
zülm etdilər. Sıxıntılı vaxtlarında İsrail
övladları Sənə fəryad etdilər. Sən
göylərdən eşitdin və Öz böyük
mərhəmətinə görə onlara xilaskarlar
göndərdin. Onlar da İsrail övladlarını
düşmən əlindən qurtardılar. 28Lakin
rahat olan kimi yenə Sənin nəzərində
pis işlər gördülər. Buna görə də Sən
onları düşmənə təslim etdin, düşmən-
ləri də onlara hökm etdilər. Onlar yenə
də Sənə fəryad etdilər, Sən də onları
göylərdən eşidib Öz böyük mərhəmə-
tinə görə dəfələrlə qurtardın. 29Onlara
xəbərdarlıq etdin ki, Sənin Qanununa
tərəf dönsünlər. Amma onlar təkəb-
bürlü olub əmrlərinə qulaq asmadılar
və hökmlərini pozub günah etdilər.
Halbuki o hökmlərə əməl edən hər kəs
həyat tapar. Onlar inadkarlıqla Sənə
arxa çevirib dikbaşlıq və itaətsizlik

**9:15** – [3]*Qanun. 1:21* **9:16-17** *Say. 14:1-4; Qanun. 1:26-33* **9:17** *Çıx. 34:6; Say. 14:18;*
**9:17** *Zəb. 86:15; 103:8; 145:8; Yoel 2:13; Yun. 4:2* **9:18** *Çıx. 32:1-4* **9:19-21** *Qanun. 8:2-4*
**9:22** *Say. 21:21-35* **9:23** – [1]*Yar. 15:5; 22:17;* [2]*Yeşua 3:14-17* **9:24** *Yeşua 11:23*
**9:25** *Qanun. 6:10-11* **9:26-28** *Hak. 2:11-16* **9:29** *Lev. 18:5*

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 579



etdilər. **30**Lakin Sən illər boyu onlarla səbirlə davrandın. Öz Ruhunla, peyğəmbərlərin vasitəsilə onlara xəbərdarlıq etdin. Onlar isə qulaq asmadılar və ona görə Sən onları ətraflarındakı xalqlara təslim etdin. **31**Lakin Sən böyük mərhəmətinə görə İsrail övladlarını məhv olmağa qoymadın, onları tərk etmədin, çünki Sən lütfkar və rəhmli Allahsan.

**32**Ey Allahımız! Böyük, qüdrətli və zəhmli, əhdi və məhəbbəti saxlayan Allah! Aşşur padşahlarının dövründən bu günə qədər bizim çəkdiyimiz, padşahlarımızın, ağalarımızın, kahinlərimizin, peyğəmbərlərimizin, atalarımızın və bütün xalqının çəkdiyi əzab-əziyyət Sənin gözündə kiçik görünməsin. **33**Sən haqlısan, başımıza gələn hər işdə bizimlə ədalətlə davrandın, biz isə pis işlər etdik. **34**Padşahlarımız, rəislərimiz, kahinlərimiz, atalarımız Sənin Qanununa riayət etmədi. Sənin əmrlərinə və verdiyin xəbərdarlıqlara qulaq asmadılar. **35**Onlar öz ölkələrində verdiyin böyük nemətlər içində, geniş, bərəkətli torpaqda belə, Sənə qulluq etmədilər və pis əməllərindən əl çəkmədilər. **36**Budur, bu gün biz köləyik. Atalarımıza meyvəsini və gözəl məhsulunu yemək üçün verdiyin o torpaqda biz kölelik edirik. **37**Günahlarımıza görə torpağımızın bol məhsulu üzərimizdə hökm sürən padşahlara nəsib olur. Bizim özümüzü də, heyvanlarımızı da istədikləri kimi idarə edirlər. Biz isə böyük zülm içindəyik.

**38**Bütün bunlara görə biz Səninlə yazılı sabit əhd bağlayırıq. Rəislərimiz, Levililərimiz və kahinlərimiz də bu əhdi möhürləyir».

### *Əhdi möhürləyənlərin siyahısı*

**10** **1**Əhdi möhürləyənlər bunlar idi: Xakalya oğlu vali Nehemya, Sidqiya, **2**Seraya, Azarya, Yeremya, **3**Paşxur, Amarya, Malkiya, **4**Xattuş, Şevanya, Malluk, **5**Xarim, Meremot, Avdiya, **6**Daniel, Ginneton, Baruk, **7**Meşullam, Aviya, Miyamin, **8**Maazya, Bilqay, Şemaya. Bunlar kahinlər idi.

**9**Levililər: Azanyanın oğlu Yeşua, Xenadad övladlarından Binnuy və Qedmiel, **10**onların qardaşları Şevanya, Hodiya, Qelita, Pelaya, Xanan, **11**Mikeya, Rexov, Xaşavya, **12**Zakkur, Şerevya, Şevanya, **13**Hodiya, Bani, Beninu.

**14**Xalqın başçıları: Paroş, Paxat-Moav, Elam, Zattu, Bani, **15**Bunni, Azqad, Bevay, **16**Adoniya, Biqvay, Adin, **17**Ater, Xizqiya, Azzur, **18**Hodiya, Xaşum, Besay, **19**Xarif, Anatot, Nevay, **20**Maqpiaş, Meşullam, Xezir, **21**Meşezavel, Sadoq, Yaddua, **22**Pelatya, Xanan, Anaya, **23**Huşə, Xananya, Xaşşuv, **24**Halloxeş, Pilxa, Şoveq, **25**Rexum, Xaşavna, Maaseya, **26**Axiya, Xanan, Anan, **27**Malluk, Xarim, Baana.

**28**Qalan xalq – kahinlər, Levililər, məbəd qapıçıları, ilahiçilər, məbəd qulluqçuları, Allahın Qanununa görə ətraf xalqlardan ayrılan hər kəs arvadları, ağlıkəsən oğul və qızları ilə bərabər **29**əsl soydaşları ilə birləşdi. Allahın qulu Musanın əli ilə verilmiş Qanuna görə hərəkət etmək, Xudavəndimiz Rəbbin bütün əmrlərinə, hökmlərinə və qanunlarına etina ilə əməl etmək üçün and içdilər. Əməl etməyənlərə isə lənət oxudular. **30**And

**9:30** *2Pad. 17:13-18; 2Saln. 36:15-16* **9:32** *2Pad. 15:19,29; 17:3-6; Ezr. 4:2,10*

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 580



içdik ki, qızlarımızı ətrafımızdakı
xalqlara verməyib onların qızlarını öz
oğullarımıza almayacağıq. **31**Ətraf
xalqlara mənsub olanlar Şənbə günü
yaxud başqa müqəddəs bir gündə
satmaq üçün əşya yaxud taxıl gətir-
sələr, onlardan heç nə almayacağıq.
Yeddi ildə bir dəfə torpağı dincə
qoyacağıq[1] və bütün borcları ləğv
edəcəyik.[2]

**32**Allahımızın məbədinin xidməti
üçün ildə şekelin üçdə bir hissəsini
verməyi öhdəmizə götürdük. **33**Bu pul
təqdim çörəkləri, daimi taxıl təqdimi,
daimi yandırma qurbanı, Şənbə gün-
ləri, Təzə Ay mərasimləri və başqa
bayramlar, müqəddəs sovqatlar,
İsrail övladlarının günahını kəffarə
etmək üçün günah qurbanları və
Allahımızın məbədinin digər ehti-
yacları üçündür.

**34**Biz kahinlər, Levililər və xalq hər
il müəyyən vaxtda Allahımızın məbə-
dini odunla təmin etmək üçün nəsil-
lərimizə görə püşk atdıq. Bu odunlar
Qanunda yazıldığı kimi Allahımız
Rəbbin qurbangahında yandırılmalı
idi. **35**Hər il torpağımızın ilk məhsu-
lunu və hər növlü ağacın nübarını
Rəbbin məbədinə aparmalıyıq.
**36**Qanunda yazıldığı kimi ilk doğulan
oğullarımızı, heyvanlarımızı, ilk do-
ğulan mal-qara və qoyun-keçimizi
Allahımızın məbədinə, orada xidmət
edən kahinlərin yanına gətirməliyik.
**37**Həm də xəmirimizin, taxıl təqdim-
lərimizin, hər növ ağaclarımızın
meyvəsinin, təzə şərablarımızın,
zeytun yağımızın nübarını kahinlərə,
Allahımızın məbədinin anbarına,
torpaq məhsullarımızın onda bir
hissəsini isə Levililərə gətirməliyik.
Çünki işlədiyimiz bütün şəhərlərdə
onda bir hissəni Levililər alır.
**38**Levililər onda bir hissəni alarkən
Harun oğullarından olan kahin
onlarla olacaq. Levililər isə alacaqları
onda bir hissənin onda birini Alla-
hımızın məbədinə, xəzinənin anbar
otaqlarına aparacaq. **39**Çünki İsrail
övladları və Levililər taxılın, təzə
şərabın və zeytun yağının təqdim-
lərini anbar otaqlarına gətirməlidir.
Orada Müqəddəs məkanın qabları,
xidmət edən kahinlər, məbəd qa-
pıçıları və ilahiçilər olacaq. Beləcə biz
Allahımızın məbədinə laqeyd ya-
naşmayacağıq.

### *Yerusəlim və digər şəhərlərinin əhalisi barəsində*

**11** **1**Xalqın rəisləri Yerusəlimdə
yerləşdi. Xalqın yerdə qalanı isə
püşk atdı ki, hər on nəfərindən biri
müqəddəs Yerusəlim şəhərinə yaşama-
ğa getsin, doqquzu isə o biri şəhərlərdə
yaşasın. **2**Yerusəlimdə könüllü yaşa-
mağa gedənlərin hamısına xalq xeyir-
dua verdi.

**3**Yerusəlimdə yerləşən vilayət baş-
çıları bunlardır. Ancaq bəzi İsraillilər,
kahinlər, Levililər, məbəd qulluqçuları
və Süleymanın əyanlarının oğulları
Yəhuda şəhərlərində, hər kəs öz şəhə-
rindəki mülkündə yerləşdi. **4**Binyamin
övladlarından və Yəhuda övladların-
dan bəziləri isə Yerusəlimdə məskun-
laşdı.

Yəhuda övladları: Peres nəslindən
Mahalalel oğlu Şefatya oğlu Amarya

---

**10:30** *Çıx. 34:16; Qanun. 7:3* **10:31** – [1]*Çıx. 23:10-11; Lev. 25:1-7;* [2]*Qanun. 15:1-2*
**10:32-33** *Çıx. 30:11-16* **10:35** *Çıx. 23:19; 34:26; Qanun. 26:2* **10:36** *Çıx. 13:2* **10:37** *Say. 18:21*
**10:38** *Say. 18:26* **11:3-4** *Neh. 7:73*

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 581



oğlu Zəkəriyyə oğlu Uzziya oğlu
Ataya, **5**Şilolu Zəkəriyyə oğlu Yoyariv
oğlu Adaya oğlu Xazaya oğlu Qal-
Xoze oğlu Baruk oğlu Maaseya.
**6**Peres övladlarından Yerusəlimdə
yerləşən 468 nəfər igid adam idi.

**7**Binyamin övladları bunlardır:
Yeşaya oğlu Yetiel oğlu Maaseya oğlu
Qolaya oğlu Pedaya oğlu Yoed oğlu
Meşullam oğlu Sallu və **8**ondan sonra
Qabbay, Sallay – 928 nəfər. **9**Zikri
oğlu Yoel onların rəhbəri idi, Has-
senua oğlu Yəhuda isə şəhərin vali
müavini idi.

**10**Kahinlərdən: Yoyariv oğlu Ye-
daya, Yakin, **11**Axituv oğlu Merayot
oğlu Sadoq oğlu Meşullam oğlu
Xilqiya oğlu Allah evinin başçısı
Seraya və **12**məbəddə iş görən soy-
daşları – 822 nəfər; Malkiya oğlu
Paşxur oğlu Zəkəriyyə oğlu Amsi oğlu
Pelalya oğlu Yeroxam oğlu Adaya və
**13**onun nəsil başçısı olan soydaşları –
242 nəfər; İmmer oğlu Meşillemot
oğlu Axzay oğlu Azarel oğlu Amaşsay
və **14**onun soydaşları – 128 nəfər igid
döyüşçü. Haqqedolim oğlu Zavdiel
onların rəhbəri idi.

**15**Levililərdən: Bunni oğlu Xaşavya
oğlu Azriqam oğlu Xaşşuv oğlu
Şemaya. **16**Levililərin başçılarından
Şabbetay və Yozavad Allah evinin
bayır işlərini idarə edirdilər. **17**Asəf
oğlu Zavdi oğlu Mikeya oğlu Mat-
tanya şükür duasını oxuyan məbəd
ilahiçilərinin dəstə rəhbəri və soydaş-
larından Baqbuqya onun müavini idi.
Yedutun oğlu Qalal oğlu Şammua
oğlu Avda da var idi. **18**Müqəddəs
şəhərdə yaşayan bütün Levililər 284
nəfər idi.

**19**Məbəd qapıçıları Aqquv, Talmon
ilə qardaşları darvazalarda keşik
çəkənlər, 172 nəfər idi.

**20**İsraillilərin, kahinlərin, Levililərin
yerdə qalanları bütün Yəhuda şəhər-
lərində yaşayırdı. Hər kəs öz mülkündə
yaşayırdı.

**21**Məbəd qulluqçuları isə Ofeldə
qalırdı. Sixa və Gişpa onlara rəhbərlik
edirdi.

**22**Allahın evindəki ibadətdə ilahilər
oxuyan Asəf övladlarından Mikeya
oğlu Mattanya oğlu Xaşavya oğlu
Bani oğlu Uzzi Yerusəlimdə Levili-
lərin rəhbəri idi. **23**Bu ilahiçilər pad-
şahın fərmanına tabe idi və hər gün
vəzifələrini müəyyən edən qaydaları
yerinə yetirirdi.

**24**Yəhuda oğlu Zerah övladlarından
Meşezavel oğlu Petahya İsrail xalqının
ümumi işlərində Fars padşahına
kömək edirdi.

**25**Kəndlərə və tarlalarına gəlincə,
Yəhuda övladlarından bəziləri Qiryat-
Arba ilə qəsəbələrində, Divon ilə
qəsəbələrində, Yeqqavseel ilə kəndlə-
rində, **26**Yeşuada, Moladada, Bet-
Peletdə, **27**Xasar-Şualda və Beer-Şeva
ilə qəsəbələrində, **28**Ziqlaqda, Me-
kona ilə qəsəbələrində, **29**En-Rim-
monda, Sorada, Yarmutda, **30**Za-
noahda, Adullam ilə kəndlərində,
Lakiş ilə tarlalarında, Azeqa ilə qə-
səbələrində qaldılar. Yaşadıqları mən-
təqə Beer-Şevadan Hinnom dərəsinə
qədər idi.

**31**Binyamin övladları Gevadan
başlayaraq Mikmas ilə Ayyada, Bet-
El ilə qəsəbələrində, **32**Anatot, Nov,
Ananya, **33**Xasor, Rama, Gittayim,
**34**Xadid, Sevoim, Nevallat, **35**Lod,
Ono və Sənətkarlar dərəsində məskən
saldılar. **36**Yəhudadakı Levililərin bəzi
bölmələri Binyamin ərazisi üçün ay-
rıldı.

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 582



### *Zerubbabil ilə gələn kahinlər və Levililər*

12 [1]Şealtiel oğlu Zerubbabil ilə
qayıdan kahinlər və Levililər
bunlar idi: Seraya, Yeremya, Ezra,
[2]Amarya, Malluk, Xattuş, [3]Şekanya,
Rexum, Meremot, [4]İddo, Ginnetoy,
Aviya, [5]Miyamin, Maadya, Bilqa,
[6]Şemaya, Yoyariv, Yedaya, [7]Sallu,
Amoq, Xilqiya, Yedaya. Bunlar
Yeşuanın dövründə kahinlərin və
qardaşlarının başçıları idi.

[8]Levililər: Yeşua, Binnuy, Qadmiel,
Şerevya, Yəhuda, Mattanya. Mattan-
ya qardaşları ilə birgə şükür ilahiləri
üçün məsuliyyət daşıyırdı. [9]Onların
qardaşları Baqbuqya ilə Unni ibadət-
də onların qarşısında dururdu.

[10]Yeşuadan Yoyaqim törədi, Yoya-
qimdən Elyaşiv törədi, Elyaşivdən
Yoyada törədi. [11]Yoyadadan Yona-
tan törədi, Yonatandan Yaddua tö-
rədi.

[12]Yoyaqimin dövründə nəsil baş-
çıları olan kahinlər bunlar idi: Seraya
nəslindən Meraya, Yeremya nəslin-
dən Xananya, [13]Ezra nəslindən Me-
şullam, Amarya nəslindən Yeho-
xanan, [14]Malluk nəslindən Yonatan,
Şevanya nəslindən Yusif, [15]Xarim
nəslindən Adna, Merayot nəslindən
Xelqay, [16]İddo nəslindən Zəkəriyyə,
Ginneton nəslindən Meşullam,
[17]Aviya nəslindən Zikri, Minyamin
nəslindən, Moadya nəslindən Piltay,
[18]Bilqa nəslindən Şammua, Şemaya
nəslindən Yehonatan, [19]Yoyariv
nəslindən Mattenay, Yedaya nəs-
lindən Uzzi, [20]Şallay nəslindən
Qallay, Amoq nəslindən Ever,
[21]Xilqiya nəslindən Xaşavya, Yedaya
nəslindən Netanel.

[22]Elyaşiv, Yoyada, Yoxanan və
Yadduanın günlərində Levili nəsil
başçıları və kahinlər Fars padşahı
Daranın hökmranlığına qədər qeyd
edilmişdi. [23]Levili nəsil başçıları,
Elyaşiv oğlu Yoxananın günlərinə
qədər salnamələr kitabında yazıldı.
[24]Levililərin başçıları Xaşavya, Şe-
revya və Qadmiel oğlu Yeşua bir
tərəfdə, qardaşları da o biri tərəfdə
dayanıb Allah adamı Davudun
əmrinə görə qarşılıqlı həmdlər və
şükürlər edirdi. [25]Mattanya, Baq-
buqya, Avdiya, Meşullam, Talmon və
Aqquv qapıçılıq edib darvazalardakı
anbarları qoruyurdu. [26]Bunlar
Yosadaq oğlu Yeşua oğlu Yoyaqimin
günlərində, vali Nehemya və ilahiy-
yatçı kahin Ezranın dövründə yaşa-
yırdı.

### *Yerusəlim divarının təqdis edilməsi*

[27]Yerusəlim divarının təqdisetmə
mərasimini sevinclə, şükürlə, ilahilərlə,
sinc, çəng və lira ilə keçirmək üçün
Levililər yaşadıqları hər yerdən çağı-
rılıb Yerusəlimə gətirildilər. [28]Yerusə-
lim ətrafındakı sahədən və Netofalı-
ların kəndlərindən, [29]Bet-Qilqaldan və
Geva ilə Azmavet çöllərindən ilahiçilər
toplandı. Çünki ilahiçilər Yerusəlim
ətrafında özləri üçün kəndlər salmış-
dılar.

[30]Kahinlər və Levililər özlərini pak
edəndən sonra xalqı, darvazaları və
divarı pak etdilər.

[31]Onda mən Yəhuda rəislərini
divarın üstünə çıxartdım və şükür
ilahiləri oxuyan iki böyük dəstə təyin
etdim. Onlardan biri divarın üstü ilə
sağ tərəfdən Peyin darvazasına doğru
gedirdi. [32]Onların ardınca Hoşaya və
Yəhuda rəislərinin yarısı, [33]Azarya,

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 583



Ezra, Meşullam, 34Yəhuda, Binyamin,
Şemaya, Yeremya, 35əllərində kərə-
naylarla kahinlərdən bəziləri – Asəf
oğlu Zakkur oğlu Mikeya oğlu Mat-
tanya oğlu Şemaya oğlu Yonatan oğlu
Zəkəriyyə, 36qardaşları Şemaya, Aza-
rel, Milalay, Gilalay, Maay, Netanel,
Yəhuda, Xanani, Allah adamı Davu-
dun musiqi alətləri ilə gedirdilər.
İlahiyyatçı Ezra onların qabağında
gedir. 37Çeşmə darvazası yanında və
onların qarşısında divar yoxuşunda
Davudun şəhərinin pilləkənləri ilə
çıxıb Davudun sarayının üst tərəfin-
dən şərqə doğru Su darvazasına qədər
getdilər.

38Şükür ilahiləri oxuyanların o biri
dəstəsi divarın üstü ilə sol tərəfə
gedirdi. Mən xalqın yarısı ilə onların
ardınca yeriyirdim. Sobalar qüllə-
sindən keçib Geniş divara qədər,
39Efrayim darvazasının üstündən
Köhnə darvaza, Balıqlar darvazası,
Xananel qülləsi, Yüz qülləsi və Qoyun
darvazasına qədər gedib Mühafizəçi-
lər darvazasında dayandıq. 40Şükür
ilahiləri oxuyanların iki dəstəsi Allah
evinin yanında ayaq saxladı. Mən də
hökumət məmurlarının yarısı ilə
dayandım. 41Yanımda kərənay çalan
kahinlər bunlar idi: Elyaqim, Maase-
ya, Minyamin, Mikeya, Elyoenay,
Zəkəriyyə və Xananya; 42habelə
Maaseya, Şemaya, Eleazar, Uzzi,
Yehoxanan, Malkiya, Elam və Ezer.
İlahiçilər İzrahyanın rəhbərliyi altında
tərənnüm etdi. 43O gün çoxlu qurban
kəsildi və şadlıq oldu, çünki Allah
xalqa böyük sevinc bəxş etmişdi.
Qadınlar və uşaqlar da sevinirdi və
Yerusəlimin şənliyi uzaqlardan eşi-
dilirdi.

### *Məbəd ibadəti üçün təminat*

44Elə o gün ianələrin, ilk məhsulun
və onda bir hissələrin yığılacağı
anbarları qorumaq üçün adamlar
təyin edildi. Bütün bunlar Qanunda
kahinlər və Levililər üçün nəzərdə
tutulan şəhərlərin ətrafındakı tarlalar-
dan anbarlara gətirilməli idi. Çünki
Yəhudalılar ibadət edən kahinlərlə
Levililərdən məmnun idi. 45Onlar,
ilahiçilərlə məbəd qapıçıları Davud və
oğlu Süleymanın əmrinə əsasən özlə-
rinin Allahına xidmət edib pak olma
mərasimini yerinə yetirdi. 46Çünki
qədim zamanlarda – Davudun və
Asəfin günlərində ilahiçilərin başçıları
var idi və Allaha həmd və şükür
mahnıları oxunurdu. 47Zerubbabilin
və Nehemyanın günlərində bütün
İsraillilər hər gün ilahiçiləri və məbəd
qapıçılarını gündəlik paylar ilə təmin
edirdi. Onlar Levililərə düşən payı
ayırdı. Levililər də Harun övladlarına
düşən payı ayırdı.

### *Nehemyanın qayda-qanunu bərpa etməsi*

13 1O gün Musanın kitabından
oxundu və xalq qulaq asırdı. Bu
kitabda belə bir yazı aşkar olundu:
«Allahın camaatına Ammonlu və
yaxud Moavlı heç vaxt daxil ola bil-
məz». 2Çünki Moav və Ammon öv-
ladları İsrail övladlarını çörək və su ilə
qarşılamamışdı. Lakin İsrail övlad-
larına qarşı lənət oxumaq üçün Bilamı
muzdla tutmuşdular. Allahımız isə
lənəti xeyir-duaya çevirdi. 3İsrail
övladları qanunu dinlədikdə bütün
yadelliləri aralarından ayırdı.

4Bundan əvvəl Allahımızın mə-

**12:45** *1Saln. 25:1-8; 26:12* **13:1-2** *Qanun. 23:3-5* **13:2** *Say. 22:1-6*

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 584



bədinin anbarlarına nəzarətçi təyin
edilən kahin Elyaşiv Toviyanın yaxın
tanışı olduğuna görə 5ona böyük bir
otaq hazırlamışdı. Oraya əvvəllər taxıl
təqdimləri, kündür, məbəd əşyaları,
qanun üzrə Levililərə, ilahiçilərə və
məbəd qapıçılarına verilən taxılın, təzə
şərabın və zeytun yağının onda bir
hissələri və kahinlərə verilən ianələr
qoyulardı. 6Bu iş baş verəndə mən
Yerusəlimdə deyildim. Ona görə ki
Babil padşahı Artaxşastanın haki-
miyyətinin otuz ikinci ilində onun
hüzuruna getmişdim. Bir müddət
sonra padşahdan izin alıb 7Yerusəlimə
qayıtdım. Elyaşivin etdiyi pisliyi –
Allah evinin həyətində Toviyaya bir
otaq hazırladığı barədə xəbər aldım.
8Bu məni çox qəzəbləndirdi və Tovi-
yanın bütün ev əşyalarını otaqdan ba-
yıra atdım. 9Mənim əmrimlə otaqları
təmizlədilər və Allah evinin əşyalarını,
taxıl təqdimlərini kündürlə birgə oraya
geri gətirdim.

10Bir də xəbər tutdum ki, Levililərin
payları onlara verilmir və xidmət edən
Levililərlə ilahiçilərin hər biri öz
torpağına qayıtmışdır. 11Mən höku-
mət məmurlarını tənbeh edib dedim:
«Nə üçün Allahın evinə etinasızlıq
edilir?» Sonra Levililərlə ilahiçiləri
toplayıb yerlərinə qaytardım. 12Bütün
Yəhudalılar anbarlara taxılın, təzə
şərabın və zeytun yağının onda bir
hissələrini gətirdilər. 13Kahin Şelem-
yanı, ilahiyyatçı Sadoqu və Levililər-
dən Pedayanı anbarlara nəzarətçi və
Mattanya oğlu Zakkur oğlu Xananı
onların köməkçisi təyin etdim. Bu
adamlar etimada layiq sayıldıqlarına
görə qardaşlarına paybölmə işi onlara
düşdü.

14Ey Allahım, buna görə məni
yadda saxla. Allahımın məbədi və
oradakı xidmətlər üçün etdiyim yaxşı
işlərimi yoxa çıxarma!

15O günlər Yəhudada gördüm ki,
bəzi adamlar Şənbə günü üzüm sıxılan
yerdə ayaqları ilə üzüm sıxırdı və içəri
taxıl gətirib eşşəklərin üstünə yüklə-
yirdi. Şərab, üzüm, əncir və hər cür
yükləri də Şənbə günündə Yerusəlimin
içinə gətirirdilər. Həmin gün mən ər-
zaq satanları töhmətləndirdim. 16Ora-
da yaşayan Surlular balıq, hər cür
mallar gətirərək Şənbə günü Yeru-
səlimdə Yəhudalılara satırdı. 17Yəhu-
da əyanlarını töhmətləndirib onlara
dedim: «Nə üçün bu pis işi görüb
Şənbə gününü murdar edirsiniz?
18Atalarımız belə işlər etmədilərmi?
Allahımız bütün bu bəlaları bizim və
bu şəhərin üzərinə buna görə gətirmə-
dimi? Siz isə Şənbə gününü murdar
edərək Onun İsrail övladlarına qəzə-
bini artırırsınız».

19Yerusəlim darvazalarında Şən-
bənin başlayacağı axşamçağı əmr
etdim ki, qapılar qıfıllansın. Şənbə
bitənə qədər qapıların açılmamasını
tapşırdım. Bəzi nökərlərimi də dar-
vazaların qabağına qoymuşdum ki,
Şənbə günü şəhərə heç bir yük gə-
tirilməsin. 20Tacirlər və hər cür mal
satanlar bir-iki dəfə Yerusəlimdən
kənarda gecələmişdi. 21Mən onlara
xəbərdarlıq edərək dedim: «Nə üçün
divarın yanında gecələyirsiniz? Bir də
belə etsəniz, sizə əl qaldıraram!»
Tacirlər də o vaxtdan Şənbə günü
gəlmədilər. 22Sonra mən Levililərə
əmr etdim ki, Şənbə gününü təqdis

**13:10** *Qanun. 12:19* **13:12** *Mal. 3:10* **13:15** *Çıx. 20:8-10; Qanun. 5:12-14; Yer. 17:21- 522*
**13:19** *Yer. 17:21; Yəh. 5:10*

Neh Lat:Azeri Bible Latin 15.01.2009 11:33 Page 585



etmək üçün özlərini təmizləyib gəl-
sinlər və darvazaların keşiyini çəksin-
lər.

Ey Allahım, bundan ötrü məni
unutma və böyük məhəbbətinə görə
rəhm elə!

**23**Həm də o günlər Aşdodlu, Am-
monlu və Moavlılardan arvad alan
Yəhudiləri də gördüm. **24**Onların
uşaqlarının yarısı Aşdod dilində ya-
xud digər xalqların dilində danışırdı,
ancaq Yəhudi dilində danışa bilmirdi.
**25**Mən onları tənbeh və lənət etdim.
Bəzilərini isə döyüb saçlarını yoldum.
O adamlara Allah haqqına and içdirib
dedim: «Qızlarınızı yadelli oğullarına
verməyin, oğullarınıza və özünüzə
onların qızlarını almayın. **26**İsrail pad-
şahı Süleyman buna görə günaha
batmadımı? Çox millətlərin arasında
onun kimi padşah yox idi və o, Allahın
sevimlisi idi.[1] Allah onu bütün İsrail
üzərinə padşah etdi, lakin yadelli
qadınlar onu belə, günaha saldılar.[2]
**27**İndi siz Allahımıza qarşı xainlik edib
yadelli qadınlar alırsınız? Etdiyiniz bu
böyük pisliyə yol verərikmi?»

**28**Baş kahin Elyaşivin oğlu Yoya-
danın oğullarından biri Xoronlu San-
ballatın kürəkəni idi. Buna görə də
onu yanımdan qovdum.

**29**Ey Allahım, onları yadda saxla,
çünki onlar kahinliyi, kahinlər və
Levililərlə kəsdiyin əhdi murdar et-
dilər!

**30**Beləliklə, xalqı bütün yadelli
ənənələrdən təmizlədim. Kahinlərlə
Levililərin vəzifələrini müəyyənləş-
dirdim. Hər kəsin öz işi var idi.
**31**Müəyyən edilmiş vaxtda odun gəti-
rilməsini və ilk nübarın təqdim edil-
məsini təşkil etdim.

Ey Allahım, məni yadda saxla və
mənə xeyirxah ol!

---

**13:23-25** *Çıx. 34:11-16; Qanun. 7:1-5* **13:26 –** [1]*2Şam. 12:24-25;* [2]*1Pad. 11:1-8* **13:28** *Neh. 4:1*